**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr 3 dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir.

- Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla yığılmalıdır.

- Məqalədə UOT indekslər və ya PACS tipli açar sözlər göstərilməlidir.

- Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Məqaləyə 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Plagiatlıq faktı aşkar edilən məqalələr geri qaytarılacaq.

*Redaksiyadan:* *məqalələr redaksiyaya çap olunmuş 1 nusxə və diskə yazılmış variantlarda təqdim olumalıdırlar.*

*Redaksiyanın e-mail ünvanı:* TarixVeOnunProblemleri@gmail.com